## FƏLSƏFİ BAXIŞ VƏ YANAŞMALAR

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2025.2(45).009**

# MÜASİR DÖVRDƏ ÖZGƏLƏŞMƏNİN SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ HAQQINDA

**Məmməd Rzayev**
fəlsəfə elmləri doktoru, professor
Naxçıvan Dövlət Universiteti, **Azərbaycan**
mamedrazi@mail.ru
https://orcid.org/ 0009 -0007 -5495 -0893

**Xülasə.** Məqalə müasir dövrdə özgələşmənin təbiəti və məzmununun açılmasına, çoxtərəfli və geniş məzmunlu sosial hadisə kimi təhlilinə həsr edilmişdir. Problemə münasibətdə özgələşməni xüsusi mülkiyyətin və kapitalizmin məhsulu kimi nəzərdən keçirən marksist yanaşmanın çatışmazlıqları qeyd edilmiş, göstərilmişdir ki, özgələşmə ictimai əmək bölgüsü ilə bağlı olduğundan ümumi sosioloji mahiyyət daşıyır.

Məqalədə müasir dövrdə özgələşmənin əsas səbəblərinə və onun təzahür formalarının təhlilinə xüsusi diqqət yetirilir. Ölkəmizdə özgələşmənin müxtəlif təzahürlərinin yumşaldılması istiqamətində aparılan dərin islahatların böyük əhəmiyyəti qeyd edilir.

**Açar sözlər:** özgələşmə, əməyin özgələşməsi, insanın özgələşməsi, özündən uzaqlaşma, şəxsiyyət, cəmiyyət, totalitar cəmiyyət, Qərb fəlsəfəsi, marksizm, obyektivləşmə

## О СОЦИАЛЬНО-ФИЛОСОФСКОЙ ПРИРОДЕ ОТЧУЖДЕНИЯ В СОВРЕМЕННУЮ ЭПОХУ

**Мамед Рзаев**

**Резюме.** Статья посвящена раскрытию социально-философской природы отчуждения, при этом отмечаются недостатки марксистского подхода, сводившего анализ данного явления лишь к его порождению частной собственностью и капитализмом. Подчеркивается, что отчуждение будучи связанным с общественным разделением труда имеет общесоциологическое содержание. Особое внимание уделяется анализу причин, порождающих отчуждение в современном обществе и форм его проявления в различных сферах. Показывается важнейшее значение глубоких реформ, проводимых в нашей стране, для снижения остроты проявлений отчуждения и его смягчения.

**Ключевые слова:** отчуждение, отчуждение труда, отчуждение человека, отчуждение от себя, личность, общество, тоталитарное общество, западная философия, марксизм, объективация

## ON THE SOCIAL-PHILOSOPHICAL ESSENCE OF ALIENATION

**Mammad Rzaev**

**Abstract.** This article deals with the disclosure of social-philosophycal essence of the alienation. It reveals the shortcomings of Marxian approach to the analysis of this phenomenon that considers the alienation as a product only of private ownership and capitalism. It is emphasized that the alienation associated with the social division of labor has a common sociological content. Special attention has been paid to the analysis of the causes that engender the alienation in contemporary society and its manifestations in economic, political and spiritual spheres. The enormous importance of the deep

reforms effected in our country for thepurpose to reduce and mitigare the acuteness of alienation and its manifestations has been underscored.

**Keywords:** alienation, alienation of labor, alienation of person, alienation from oneself, personality, society, totalitarian society Western philosophy, Marxism, objectification

**Giriş**

Müasir sosial fəlsəfədə geniş yer tutmaqda olan şəxsiyyətin öyrənilməsinə hərtərəfli yanaşma, zəmanəmizin ən aktual problemlərindən biri olan özgələşmənin təbiəti və məzmununu açmağa imkan verir. Sözün ümumi mənasında özgələşmə dedikdə şəxsiyyətin ontoloji mahiyyəti ilə onun real varlığının bir-birindən kəskin surətdə ayrılması və uzaqlaşması başa düşülür. Özgələşmə elə bir sosial və psixoloji durumdur ki, bu vəziyyətdə şəxsiyyət ilə real mövcud sosial strukturlar arasında ziddiyyətlər özünü göstərir. Bu ziddiyyət fərdin öz qabiliyyətlərini reallaşdırmaq imkanları ilə sosial münasibətlər arasında uyğunsuzluq formasında çıxış edir. Həm də özgələşmə sosial statusundan asılı olmayaraq bütün şəxsiyyətlərin həyat fəaliyyətində bu və ya digər dərəcədə özünü göstərir.

**Müasir dövrdə özgələşmənin sosial-fəlsəfi mahiyyəti haqqında**

Fəlsəfə fənninin öyrənilməsində bir sıra mövzularda şəxsiyyət və özgələşmə problemi tədris olunduğundan fəaliyyət və insanın həyatda özünü müəyyən etmək və çətinlikləri dəf etmək qabiliyyətinin təhlili bu məsələnin aktuallıq dərəcəsi və sferasından asılı olaraq “özgələşmə” anlayışının mənasınının açılmasını zəruri edir.

Sosial-mədəni hadisə kimi özgələşmə son zamanlar alimlərin diqqətini daha çox cəlb etmiş və bu elmi problemin müxtəlif istiqamətlərini müəyyən etmək baxımından bir sıra tədqiqatlar aparılmışdır. Ümumiyyətlə, fəlsəfə, psixologiya, hüquq və sosiologiyada özgələşmə anlayışından geniş istifadə olunur ki, bu da anlayışın ümumi xüsusiyyətlərini və müəyyən mənada başa düşülməsini, onun sosial hadisə kimi qarşılıqlı əlaqəsini öyrənməyə ehtiyac hiss etdirir. Bu məsələyə çox yer verilməyən elmi ədəbiyyatda özgələşmənin təkcə sosial-mədəni aspekti ilə bağlı deyil, həm də iqtisadi mahiyyəti ilə də bağlı araşdırmalara rast gəlinir. Müasir cəmiyyətdə xüsusilə nəzərə çarpan sosial-mədəni sferanın iqtisadiyyat, hüquq və siyasətlə artan inteqrasiyası ilə əlaqədar bu istiqamətin təhlilinə ciddi ehtiyac olduğu hiss edilməkdədir.

Özgələşmə (fransız. aliénation, almanca: Entfremdung) fəlsəfədə insanın üstün qüvvə kimi qarşısına çıxan, subyektdən onun təsir obyektinə çevrilən keyfiyyətlərinin, fəaliyyət nəticələrinin və münasibətlərinin obyektivləşməsini ifadə edən kateqoriyadır. “Özgələşmə” anlayışının məzmununu düzgün başa düşmək üçün anlayışın şərhini verən “Fəlsəfə lüğətinə” müraciət etmək lazımdır. “Özgələşmə insan fəaliyyətinin məhsul və nəticələrinin, eləcə də onun xassələrinin və qabiliyyətlərinin ondan asılı olmayan bir prosesə çevrilməsi və ona hökmranlıq etməsi prosesidir”. Özgələşmə depersonalizasiya (şəxsiyyətini itirmə hissi) və derealizasiya (ətrafda baş verənlərin qeyri-reallıq hissi) təzahürləri ilə də xarakterizə olunur. Təbii ki, konsepsiya ətraflı izahat tələb edir. Gənclərdən “Özgələşmənin mahiyyətini izah edin” deyə soruşduqda, müxtəlif fikirlər alır və sonra bu anlayışın insan fəaliyyətinin bütün sahələrinə (fərdin özü, iqtisadi, siyasi, sosial və mənəvi həyat sahələrinə) aid olduğu qənaətinə gəlirik.

Müasir fəlsəfə və antropologiya nöqteyi-nəzərindən özgələşmə anlayışı cəmiyyətdə sosial münasibətlərin yaratdığı, insan münasibətlərinin əşyalar arasındakı münasibətlərlə əvəz olunduğu obyektiv prosesdir. Özgələşmə onda təzahür edir ki, subyekt manipulyasiya obyektinə çevrilir, istehsalçı tərəfindən əməyin nəticələrinə nəzarət olmadıqda, obyektivləşdirilmiş əməyin insan əməyi üzərində dominantlığı baş verir. Sosial fəlsəfədə bu termin adətən subyektiv və psixoloji mənada işlənir. Təhlil edilən anlayışın mühüm struktur ünsürlərindən biri də insanın sosial mühitə təsir edə bilməməsi hissi kimi şərh edilməli olan “gücsüzlük”dür. Başqa bir cəhət, “mənanın itirilməsi” məqsədə çatmağın qeyri-mümkünlük hissini ifadə edir. İnsan özünü əsas dəyərlərdən qopmuş hesab edə bilir və bu halda onun sosial həyatdan “təcrid olunması” və “özünün uzaqlaşdırılması” baş verir. Hazırda Süni intellekt kontekstində özgələşmə yeni ölçülər qazanır:

- əmək bazarında özgələşmə - Sİ-nin avtomatlaşdırma vasitəsi kimi bəzi işçilərin öz peşələrindən uzaqlaşmasına və iş yerində təsir imkanlarının azalmasına gətirib çıxarır;

-sosial münasibətlərdə özgələşmə - rəqəmsal texnologiyalar və Sİ əsaslı kommunikasiya vasitələri insanların real sosial əlaqələrini zəiflədə və tənhalığı artıra bilər;

-insan və texnologiya münasibətləri - Sİ qərarqəbuletmədə mühüm rol oynadıqca, insanlar öz subyektivliyini və fərdi təsir imkanlarını itirə bilərlər.

Buradan belə bir nəticə əldə etmək olar ki, Sİ cəmiyyətə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Texnologiyaların düzgün tənzimlənməsi və etki istifadəsi özgələşmənin mənfi təsirlərini azaltmağa kömək edə bilər. Əks halda, Sİ insan fəaliyyətinə və identikliyinə yadlaşmanı daha da dərinləşdirə bilər.

Özgələşmə çoxtərəfli və geniş məzmunlu sosial hadisədir. O təkcə iqtisadi, siyasi və mədəni həyat sferaları ilə məhdudlaşmayaraq, şəxsiyyətin daxili aləmini, şüurunu və psixikasını da əhatə edir. Beləliklə, özgələşmə insanın ümidləri və arzuları ilə sosial strukturların normaları arasında ayrılığın onun şüurunda müəyyən psixoloji ifadəsi, bu normaların şəxsiyyət tərəfindən yad və ona düşmən kimi qəbul edilməsi, təcrid olunma və tənhalıq hissi, davranış normalarının dağılması kimi qəbul edilməsi deməkdir (1, s.472).

Müasir dövrdə şəxsiyyətin özgələşməsi ilə bağlı problemləri dərindən anlamaq üçün, fikrimizcə, onun fəlsəfi ənənədə yerinə qısa da olsa, nəzər salmaq məqsədəuyğundur. Fəlsəfi fikir tarixində belə bir rəy mövcud olmuşdur ki, insanların öz hüquqlarını ictimai-siyasi təşkilatlara verməsi özgələşməni, yəni şəxsiyyətin tələbatları ilə mövcud quruluşun davranış normalarının bir-birindən ayrı düşməsini törədir. Qərbdə geniş yayılmış ictimai müqavilə nəzəriyyəsində, Hobbsun, Russonun və sonralar Hegelin təlimlərində mənəvi özgələşmə, yəni siyasi hüquqların özgələşməsi, ruhun özgələşməsi əsas götürülürdü. Özgələşmənin ümumi tarixi xarakter daşıdığını anlamaq üçün onun Hegel tərəfindən təfsiri diqqəti cəlb edir. Əvvəla, onu qeyd edək ki, bu anlayış Hegelin fəlsəfəsində mərkəzi yerlərdən birini tutur. O, özgələşmənin əsas mahiyyətini insanın öz yaratdıqlarına, yəni reallaşdırdığı gerçəkliyə spesifik münasibətində görürdü. Hegelə görə, məhz insanın yaratdığı bu reallaşdırılmış gerçəklik onun özü tərəfindən əsl həqiqi olmayan kimi başa düşülür və özgələşməni yaradır, yəni şəxs onlara münasibətdə öz “mən”ini qoruyub saxlayır. «İradənin fərdiliyinin özgələşməsi onun bilavasitə saxlanılması deməkdir. Bu, mənəviliyin ən yüksək mərhələsidir. Bu pillədə ikiyə bölünmə o deməkdir ki, hər bir tərəf tamamilə özü- özünə qayıdır, özgürlüyünü mahiyyət kimi anlayır (7, s.361). Hegel göstərirdi ki, özgələşmə prosesində insan ayrica bir fərd kimi ən ümumini özündən kənarlaşdırır və ona tam müstəqillik verir, bu halda o, gerçəkliyindən imtina edərək, yalnız bilik kimi qalır. Məsələn, insanın mənfi keyfiyyətləri, qəbahəti öz mövcud varlığından tam imtina edən özgürlüyünün tam şəkildə özgələşməsi deməkdir, onun artıq öz ümumi dünyası deyil, başqa dünyası vardır.Böyük mütəfəkkir özgələşmə kateqoriyasına xüsusi əhəmiyyət verərək, onu özünün “substansiya – subyekt” konsepsiyasının əsasına qoymuşdur. Həmin konsepsiya isə subyekt ilə obyektin “mütləq eyniyyətini” israr edərək göstərir ki, burada ruh eyni zamanda həm “substunsiya” və həm də “subyekt” kimi çıxış edir. Hegelin təlimində dünya ruhu «iki aləmə bölünür: birincisi gerçəklik dünyası və yaxud ruhun özünün özgələşməsi dünyasıdır, ikinci dünyada isə ruh birincidən yüksəkdə duraraq özünü xalis şüur efirində quraşdırır» (8, s.262). Hegel bu fikri dövlətə tətbiq edərək qeyd edirdi ki, dövlət fərdlərin mahiyyətinin ifadəsi deməkdir. O nə dərəcədə sadə substansiyadırsa, bir o qədər də ən ümumi hadisə deməkdir. “O elə bir mütləqlikdir ki, burada fərdlərin mahiyyəti ifadə olunur və onların fərdiliyi sadəcə olaraq onların ümumiliyinin başa düşülməsidir” (8, s.266). Hegelin fikrincə, özgələşmə ruhun qəlb, can tərəfindən inkar edilməsi ilə başlayır. Bu, birinci inkardır, ikinci inkar - ümumiyyətlə, götürülən qeyri- xoşbəxtlik deməkdir, üçüncü pillə ən yüksək olub, subyektin mənlik şüurunun ali səviyyədə özgələşməsi deməkdir (9, s.166).

Fəlsəfi ədəbiyyatda haqlı olaraq göstərilir ki, Hegel özünün fəlsəfi sisteminə müvafiq olaraq özgələşməni daxili xarakterli inkarın (canın ruhu inkar etməsi) və xarici xarakterli inkarın (dövlətin insanı inkar etməsi) və transendental xarakterli inkarın (insan və vahid yaradıcı - Allah) nəticəsi hesab edir (2, s.124).

XIX əsrin ikinci yarısından başlayaraq industrial cəmiyyətin inkişafı ilə əlaqədar olaraq özgələşmə probleminə diqqət daha da artdı. Həmin dövrdən etibarən fəlsəfi fikirdə belə bir meyil qərarlaşdı ki, özgələşmə insan üçün zəruri keyfiyyətdir və sosial həyatda onun aradan qaldırılması mümkün deyildir. XX əsrdə bu meyil daha da inkişaf etdirildi və göstərildi ki, özgələşmə insanın sosial həyatda iştirakının mahiyyət xarakterli səviyyəsidir. Artıq bu dövrdə özgələşmə kateqoriyası sosial prosesləri əks etdirən digər anlayışlarla əlaqəli götürülürdü. Məsələn, K.Manheym və M.Beber onu bürokratiya ilə,

E.Dürkheym və R.Merton sosial anomiya ilə, H.Markuze isə onu industrial cəmiyyətə xas olan istehlakçılıq yarışı ilə sıx əlaqədə nəzərdən keçirmişlər. Yeri gəlmişkən qeyd edək ki, özgələşmə problemi təkcə Qərb fəlsəfəsində deyil, həm də Şərq nəzəri fikri tarixində (məsələn, ən çox sufizm təlimində) özünü göstərmişdir. Lakin bu iki fikir istiqaməti tərəfindən özgələşmənin anlaşılmasında müəyyən fərq də vardır. Belə ki, Qərb fəlsəfi ənənəsində özgələşmə ya nihilizmin sərhədində olan tənhalıq ilə, yaxud da özünü tamamilə dinə həsr etməklə başa çatır. Şərq fəlsəfəsində isə bir qayda olaraq özgələşmə həqiqət axtarışları və Allaha sevgi yolunda özünü göstərən tərkidünyalıq və asketizm ilə tamamlanır. Qeyd edilməlidir ki, şəxsiyyətin özgələşməsinin müvəqqəti, konkret tarixi xarakter daşıdığı, yaxud da bütün dövrlərdə zəruri fəaliyyət göstərən ümumtarixi sosial fenomen olması haqqında məsələ fəlsəfi fikirdə birmənalı izah olunmur. Məsələn, marksizm fəlsəfəsi göstərirdi ki, özgələşmənin əsas mənbəyini xüsusi mülkiyyət təşkil edir və o, kapitalizm cəmiyyətində özünün ən yüksək pilləsinə çatır. Buna görə də kapitalizmin inqilabi yol ilə devrilməsi həm də özgələşmənin aradan qalxması demək olacaqdır. Bu məntiqə görə, kommunizmin bərqərar olması gedişində ictimai münasibətlərin sosiallaşması baş verəcək və beləliklə də, özgələşmə yox olacaqdır. Sözügedən baxışı doğru hesab etmək olmaz. Səbəbi də budur ki, yuxarıda deyildiyi kimi, özgələşmə xüsusi mülkiyyətin deyil, ictimai əmək bölgüsünün nəticəsidir. Buna görə də onu xüsusi mülkiyyət ilə bağlayaraq gələcəkdə yox olacağını iddia etmək əsassızdır. Bunu tarixi təcrübə də sübut edir. Bu prosesdə özgələşmənin zəifləməsi meyli özünü göstərmir. O, ictimai əmək bölgüsü ilə əlaqəli olduğu üçün (ictimai əmək bölgüsü isə gələcəkdə də qalacaqdır) öz-özünü tənzim edən sistemə - cəmiyyətə daxilən məxsus olan keyfiyyət kimi təsəvvür olunan perspektivdə qalmaqda davam edəcəkdir. Söhbət onun kəskinlik dərəcəsinin azadılmasından və yumşaldılmasından gedə bilər. Özgələşmə prosesinin öz inkişafında malik olduğu fazaların və mərhələlərin xarakteri də spesifikdir. Yəni, onun yüksələn və yaxud da enən xətt üzrə getdiyini söyləmək o qədər də ağlabatan deyildir. Görünür ki, bu proses daha çox spiralvari formada çıxış edir. Belə ki, bəşəriyyətin tarixində elə dövrlər olmuşdur ki, özgələşmənin nisbətən zəiflədiyi və yaxud gücləndiyi hallar özünü göstərmişdir (13, s.294). Ədalət naminə qeyd olunmalıdır ki, özgələşmənin kapitalizm cəmiyyətinə nəzərən verilən marksist təhlilin bəzi müddəaları indi də öz əhəmiyyətini itirməmişdir. Bu, xüsusən də özgələşmənin iqtisadi, siyasi və mənəvi növlərinə və təzahür formalarına aiddir.Bu baxımdan marksizm özgələşmənin məzmununda aşağıdakı xüsusiyyətləri seçib ayırırdı: a) bütövlükdə insanın fəaliyyətinin özgələşməsi və bunun nəticəsində işçinin əmək prosesində tam yorğun və sarsımış halda özünü göstərməsi; b) əmək şəraitinin və əməyin özünün özgələşməsi; ç) əməyin nəticələrinin muzdlu işçidən özgələşməsi; c) sosial institutların və onların tələb etdiyi normaların zəhmətkeşlərdən özgələşməsi; d) ideologiyanın həyatdan özgələşməsi. Bu onunla nəticələnir ki, cəmiyyətin bütün üzvlərində şəxsiyyəti normal çərçivədən kənara çıxan davranışa gətirib çıxaran ideologiya formalaşdırılır, yəni onun ideoloji manipulyasiyası baş verir.

Özgələşmə probleminə eksistensialist və personalist mövqeyindən yanaşma bu prosesin təkcə kapitalizm deyil, bütün quruluşlara xas olduğunu israr edir. Fikrimizcə, sonuncu baxış həqiqətə daha uyğundur. Belə ki, şəxsiyyət ilə cəmiyyət arasında müəyyən fərqlilik və mənafe müxtəlifliyi mövcud olduqca (həmin göstərici isə bu və ya digər dərəcədə bütün dövrlərdə mövcud olacaqdır), özgələşmə də müəyyən formalarda təzahür edəcəkdir. Lakin buradan belə bir yanlış nəticə çıxarmaq olmaz ki, özgələşmə bütün dövrlərdə eyni məzmuna malikdir və eyni səviyyədə ifadə olunur. Əslində, özgələşmə anlayışının məzmunu tarixi xarakter daşıyır. Bu isə o deməkdir ki, cəmiyyət siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə tərəqqi edib, mükəmməl səviyyəyə yüksəldikcə, həmin istiqamətlərin hər birində şəxsiyyət ilə cəmiyyətin əlaqələri daha da yaxınlaşır və təkmilləşir.Müasir dövrdə cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi münasibətlərinin keyfiyyətcə dəyişilməsi, ənənəvi psixoloji və ideoloji qaydaların aradan qalxması, mədəni və mənəvi dəyərlərin yenidən mənalandırılması kimi əsaslı proseslər şəxsiyyət ilə cəmiyyət arasında qarşılıqlı yaxınlığı artırır və özgələşməni xeyli dərəcədə yumşaldır. Bununla belə, müasir cəmiyyətdə şəxsiyyətin özgələşməsinin tam aradan qalxdığını iddia etmək sadəlövhlük olardı. Hər şeydən əvvəl ona görə ki, cəmiyyətin yüksələn xarakteri və buradan irəli gələn amillər, şəxsiyyətin iqtisadi, siyasi və mənəvi sferalarda özgələşməsinə şərait yaradır və ona qida verir. Digər tərəfdən, cəmiyyətin qarşısında duran starteji məqsədlərin (hərtərəfli və ardıcıl demokratikləşmə, bazar münasibətlərinin formalaşması, vətəndaş cəmiyyəti və hüquqi dövlət yaradılması və s.) tam başa çatmaması üzündən şəxsiyyət - cəmiyyət münasibətlərində özgələşmə də qalmaqda davam edir. Müasir

dövrdə şəxsiyyətin özgələşməsi bir çox amillər kompleksinin birgə təsiri altında baş verir. Onların sırasında elmi-texniki tərəqqi xüsusi yer tutur. Belə ki, elmi-texniki tərəqqi şəraitində dövlət aparatı geniş miqyasda şişirdilir və o, ictimai həyatın bütün sahələri üzərində sərt nəzarət həyata keçirən nəhəng “texnokratik maşına çevrilir. Bu proses istər-istəməz şəxsiyyətin fəaliyyəti üzərində də nəzarətin çoxalması, onun azadlıq və müstəqilliyinin, mənəvi seçim imkanlarının məhdudulaşdırılması ilə müşayiət olunur. Hazırda elmi-texniki tərəqqinin sürətli gedişi ictimai həyat formalarına pozucu təsir edir, insan ölçülərinin və maraqlarının həyata keçirilməsinə maneçilik yaradır. Bu meyil çoxaldıqca “texnofobiya” (hərfi mənası “texnikadan qorxmaq” deməkdir) adlı hadisə özünü göstərir. Həmin anlayış elə bir şəraiti əks etdirir ki, burada texniki «əməliyyatların və obyektlərin özgələşmiş dünyası insan tərəfindən öz varlığı üçün təhlükə kimi qəbul olunur və bu vəziyyət kütləvi şüur səviyyəsində geniş yayılır” (23, s.299). Mükəmməl texniki vasitələrin geniş tətbiqi, informasiya texnologiyasının heyrətamiz nailiyyətləri şəxsiyyətin hər bir hərəkətini və atdığı addımı nəzarət altına almağa imkan verir. Bu isə nəticə etibarilə şəxsiyyətin daxili fəallığı və yaradıcı müstəqilliyini xeyli dərəcə zəiflədir. Müasir dövrdə kütləvi informasiya vasitələrindən şəxsiyyətin emosiyalarını, fikir və hisslərini manipulyasiya etmək üçün məharətlə istifadə olunur. Bununla yanaşı, onun zəka və iradəsinin müəyyən çərçivəyə salınması, başqa sözlə deyilsə, ağılın standartlaşdırılması meyli baş verir. Buradan aydın olur ki, elmi-texniki inkişafa uymaq insan fəaliyyətinin mənəvi əsaslarını sarsıdır, şəxsiyyətin həyat tərzindən və sosial vəziyyətdən narazılığını artırır, onun mənəvi dünyasını eroziya təhlükəsi ilə üzləşdirir.

Müasir cəmiyyətdə özgələşməni törədən amillər sırasında sosial narahatlıqlar, narazılıqlar və ədalətsizlik halları əhəmiyyətli yer tutur. Öz gündəlik həyatında, fəaliyyətində bu qəbildən olan hadisələrlə tez-tez rastlaşan insanda özgələşmə, tərkidünyalıq və tənhalıq baş qaldırır. Bu mənada qeyd olunmalıdır ki, Azərbaycanda 90-cı illərin əvvəllərində qərarlaşmış olan siyasi sabitsizlik, qeyri-müəyyənlik və hərcmərcilik mühiti özgələşməyə güclü qida vermişdi. Zəmanəmizin görkəmli filo-soflarından olan E. From göstərirdi ki, insan varlığı unikal və eyni zamanda ümumi xarakter daşıyır. Onun daxili aləmində sosial səbəblərdən irəli gələn konfliktlər əsas yer tutur. Bu konfliktlərin səbəbləri isə müasir dünyada insanın mövcudluğunun özülündə duran özgələşmə, əkshumanistləşmə və istehlakçı cəmiyyətdə insanın öz şəxsi keyfiyyətlərini itirməsi və şəxssizləşməsi kimi hadisələrdir. Buna görə də, onun fikrincə, bunların aradan qaldırılması sosial şəraitin özünün dəyişdirilməsi, yəni daha humanist cəmiyyət qurulması və insanın sevgiyə, etiqada və zəkaya olan daxili qabiliyyətinin genişləndirilməsi ilə bağlıdır (21, s.312).

Qeyd olunmalıdır ki, ictimai əmək bölgüsünə əsaslanan cəmiyyətdə özgələşmənin kökləri istehsalda, fərdin istehsal fəaliyyətində özünü göstərir. O, istehsalda, bölgüdə, mübadilə və istehlakda bir-birinə əks tərəflərin əlaqəsi üsulu kimi çıxış edir. Həmin əks tərəflərə misal olaraq istehsal vasitələrinin mülkiyyətçisi ilə iş qüvvəsinin sahibi arasında, istehsalçı ilə istehlakçı arasındakı fərqi göstərmək olar. Bu ayrılıq antaqonist cəmiyyətlərdə daha kəskin şəkildə çıxış edir. Burada işçinin əməyinin nəticələri başqasına məxsus olur. Buna görə də əmək işçi üçün nə isə bir kənar amilə, onun mahiyyətinə mənsub olmayan fəaliyyət növünə çevrilir.

Lakin özgələşmə təkcə maddi istehsal sferası ilə məhdudlaşmır. O, burada yarandıqdan sonra digər sferalara keçir. Tədricən siyasi təsisatlar, mənəvi nemətlərin istehsalı və istehlak edilməsi, sosial sferanin institutları (təhsil, səhiyyə) da fərddən özgələşmiş hala düşür.

Özgələşmənin mahiyyətinə nəzər saldıqda onun ikipilləli xarakteri aşkara çıxır. Birinci səviyyədə sosial kollektivlərin üzvü olan insanlardan onların iş qüvvəsi, qabiliyyətləri və fəaliyyətinin nəticələri ayrılır. Lakin özgələşmə bununla bitmir, ikinci pilləyə yüksəlir. Həmin pillədə insanların fəaliyyətinin özgələşmiş nəticələri müstəqil amillərə çevrilir, onların nəzarətindən çıxır və cəmiyyət üzərində hökmranlıq edən qüvvə kimi çıxış edir.

Həmişə belə bir sualla rastlaşırıq. “Özgələşmənin yaranmasının səbəbləri nədir?” Konkret olaraq qeyd edək ki, şəxsi mülkiyyətin olması, cəmiyyətdəki bərabərsizlik (iqtisadi, siyasi, sosial), hakimiyyət orqanlarının özbaşınalığı, şəxsiyyətin özünə hörmətinin aşağı olması əsas amil kimi götürülə bilər. Bu zaman özgələşmənin təzahür formalarına da diqqət yetirmək lazımdır. İlk olaraq ictimai həyatın müxtəlif sahələrində bu rosesin yaranma səbəblərini araşdırarkən**:**

**a) iqtisadi sahədə özgələşməyə nəzər salaq:**

- Bəzi fəaliyyət növləri prioritet, digərləri isə ikinci dərəcəli və ya az əhəmiyyət kəsb edir və

deməli, əməyin ödənilməsi əhəmiyyətli dərəcədə fərqli olduqda, əmək bölgüsü ilə əlaqədar fəaliyyətin özgələşməsi baş verir. Bu isə işin monotonluğu, fəaliyyət zamanı insanın yorğunluğu, ona istirahət üçün az vaxt verilməsi zamanı fərdin daxili aləmində boşluğa, fəaliyyətə marağın itməsinə səbəb olur.

- Fəaliyyətin şərtlərinin və nəticələrinin əmək prosesindən kənarlaşdırılması, işin görülməsi üçün lazımi şəraitin olmaması, çətin və ya əlverişsiz iş şəraiti, (məsələn, mədənçilər üçün lazımi alətlərin olmaması, zəif işıqlandırma və ya səs izolyasiyası) insanı kapital vasitəsinə çevrilir. F.Engelsin qeyd etdiyi kimi, “əmək bölgüsü ilə birlikdə insanın özü də bölünür”.
- Pul kultu və ona həyatda hər şeyi müəyyən edən xüsusi məna vermək. Bəzi insanlar mümkün qədər çox qazanmağa çalışır, hətta pul əldə etmək və varlanmaq üçün qeyri-qanuni üsullardan istifadə edirlər.
- Rəhbərlikdən asılılıq – işçi əmr və ya göstərişi yerinə yetirməyə borcludur.Lakin bir sıra hallarda qanunsuzluqlara qarşı hər hansı sanksiyadan qorxaraq, öz fikrini ifadə etmək imkanı yoxdur.

**b) Cəmiyyətdəki siyasi özgələşmənin bəzi cəhətlərinə nəzər yetirək:**

- İnsanların seçki prosesində iştirak etmək istəməməsi, çünki onlar manipulyasiya edildiyini, onları siyasi alətə çevirdiklərini başa düşürlər, hər hansı bir namizədə səs verməyə gəldikdə, hətta onlara “qızıl dağlar” vəd edilsə belə, bu prosesə qoşulmur, laqeyd münasibət bildirirlər**.**
- Eyni motivasiya müxtəlif hakimiyyət orqanlarının nümayəndələri ilə görüşlərdə iştirakdan imtinaya da aid edilə bilər.
- Hakimiyyət orqanları tərəfindən insanların hüquq və azadlıqlarının əsassız olaraq məhdudlaşdırılması;
- Hakimiyyət orqanları tərəfindən hər hansı məsələyə baxılmasında formalizm;
- Dövlət məmurlarının qanunları pozması və məsuliyyətdən yayınması.

**c) Sosial özgələşmə, bəlkə də, ən çox yayılmış hadisədir,çünki həyatımızda onun təzahür formaları kifayət qədər çoxdur. Bunlara əsasən ağıdakıları daxil etmək olar:**

- Status və peşəyə görə imtiyazların olması. Bu hallarda fərd qrupdan uzaqlaşır, çünki məşhurlaşır, “ulduz” olur və özünü unikal hesab edir. Təbii ki, bu, bütün məşhur insanlara xas deyil, lakin belə hadisələrə kifayət qədər nümunələr göstərmək olar.
- Milliyyət, din, yaşayış yeri (böyük şəhər və ya əyalət, şəhər və ya kənd) əsasında ayrı-seçkiliyin özünü göstərməsi;
- İctimai rəyin spesifik manipulyasiyası, fərdiliyin, insanların müstəqilliyi və azadlığının boğulması;
- Dünyadan qaçmaq cəmiyyətdə adi bir hadisədir ki, bu qəfil səyahət və yerdəyişmə istəyi ilə xarakterizə olunur. Qaçış hərəkət azadlığını simvolizə edən məna ilə dolu görünür, lakin burada da özgələşmə özünü göstərir. Səyahət etmək istəyi daxili narahatlıqdan, sosial və digər problemlərdən xilas olmaq üçün gizli bir arzu ilə izah olunur. İnsan yalnız səfərdə olanda öz həyatını tanış cəmiyyətdən uzaqda hiss edir. Konkret bir məqsəd və ya plan olmadan tərk etmək özgəninkiləşdirmənin ən geniş yayılmış formalarından başqa bir şey deyil. Məsələn, geoloqlar aprel-oktyabr aylarında tarlada olur, sonra öz normal həyat tərzinə qayıdırlar. Amma onlar böyük səbirsizliklə yazın gəlişini gözləyirlər ki, onlar yenidən dağlara, yataqları kəşf etməyə gedəcəklər. Eyni şey balıqçılar, dənizçilər və ovçular üçün də keçərlidir. Bu, həm də dünyadan qaçmağın gizli formasıdır.

Dünyadan qaçmaq həm də insanlardan uzaqda yaşamaqdır. Asketizm - dini, yaxud mənəvi məqsədlər naminə ehtiyacların ödənilməsinin könüllü surətdə məhdudlaşdırılması, həzzdən imtina olunması, əziyyətlərə dözümlülük göstərilməsi buna misal ola bilər. Asketizm təcrübəsi müxtəlif mədəniyyətlər də eyni məqamları özünü qidada məhdudlaşdırmağ (oruc), seksual münasibətlərdən qorunma (nikahsızlıq), tənhalığa çəkilmə, susmaq, daha ifrat formalarda isə səfilliyi (sərgərdanlıq, dərvişlik), özünə əzab verməyi və s. özündə birləşdirir.

**d) Mənəvi yadlaşma əxlaqi, intellektual, bədii, dini, yaradıcı sferalarda aşağıdakı formalarda özünü göstərir:**

- Bütlərin formalaşması (elmdə, sənətdə), onlar özlərinin yaratdığı yeni tanrılarına ehtirasla sitayiş etdikdə. Şəxsiyyət hesab edir və inanır ki, büt qüsursuzdur, onun bütün düşüncələri, hissləri və hərəkətləri tamamilə ədalətlidir və şəxsiyyət onları özününkü kimi qəbul edir, öz ağlını özündən

uzaqlaşdırır. Özgələşmə yaradıcı ziyalılara da təsir edir. Bir sıra ədəbiyyat, kino və musiqi əsərlərinin məzmununun və mənəviyyatının zəif və aşağı səviyyəli olması çox vaxt kütlənin "aşağı zövqü" ilə əlaqələndirilir. Baxmayaraq ki, əslində belə əsərlər yaradıcılarının özgələşməsinin nəticəsidir, bu əsərlər azad təxəyyülün meyvəsi deyil, "kütləvi" mədəniyyət standartlarının məhsulu hesab edilə bilər.

- İkili standartlar - bir şeyi deyib, fəaliyyət prosesində tamamilə başqa cür etdikdə;
- Konformizm – mövcud tələb və qaydaların, rəy və qiymətləndirmələrin passiv qəbul edilməsi, üstünlük təşkil edən istənilən modelə riayət etmək, özünə məxsus mövqenin olmaması;

d) Müxalifətçilik – ümumi qəbul edilənlərdən fərqli olan fikirlərin müdafiəsi. Bu, söz, mətbuat, yaradıcılıq azadlığının olmaması, cəmiyyətdəki və kollektivdəki mövqe narazılığından baş verir;

e) Darıxma, "Xarici sözlər lüğəti"ndə ifadə edildiyi kimi, ətrafdakı qıcıqlandırıcılarla qarşılıqlı təsirin olmaması nəticəsində yaranan yorğunluq və ya melanxolik haldır.

Darıxma, M.Haydeggerə görə, mənasızlığı nəzərdə tutur. Cansıxıcılığın arxasında ruhi ağrı, melanxoliya, depressiya yatır, onun fikrincə, burada bir-biri ilə əlaqəli, lakin ortaq heç bir şey yoxdur. Evdən kənarda cansıxıcılıq sakit düşüncələrdə özünü göstərir. İnsanların arasında olan, onların arasında yaşayan insan tənha və boş qalır. O, cəmiyyətin həyatında iştirak etmir. Xarici məşğuliyyətin, aktiv fəaliyyətin və "mən"in təzahürünün arxasında mənəvi bir "gizli hal" gizlənir, bunun nəticəsi - kütlədən uzaqlaşmadır. Darıxmaq - boşluq, heçlik, mənasızlıq, apatiya, maraq itkisidir. Bu, insanın dünyaya qarışmasından məmnun olmadığını göstərir və buna görə də özünü daha yaxşı başa düşmək və vəziyyəti dəyişdirmək imkanı var;

f) Ümidsizlik - itki, məhrumiyyət hissi ilə müşayiət olunan və bununla əlaqədar daxili boşluq və laqeydlik hisslərinin yarandığı haldır. Ümidsizliyin əlamətləri passivlik, süstlük, tənbəllik və peşəkar tükənmişlikdir. Bu, uzun müddət təklikdə qalan, vacib mövzular üzərində düşünən insanlar üçün xarakterikdir. Ümidsizlik, öz işinin nəticələrindən narazılıq, yorğunluq, özündən və işindən iyrənmə, yadlaşma və özünü təcrid etdikdə tükənmişliyi göstərir. Bu zaman mövcud şərait və gözlənilən ilə baş verənlər arasında çoxlu uyğunsuzluqlar özünü göstərir. İnsan dünyada itib gedir, təbiətlə, cəmiyyətlə, normal yaşamaq imkanı yaradan əsaslarla əlaqəni itirir. Qeyri-müəyyənlik və təklik hissi nəticəsində insan özü ilə baş-başa qalır, lakin obyektlərə və ya insanlara, hadisələrə qarşı düşmənçilik və ikrah hissləri yaşayır.

g) Öz mahiyyətindən uzaqlaşma, təəssüf ki, geniş yayılmış və müasir sivilizasiyanın mövcudluğu üçün təhlükəlidir. Fərd öz güc və imkanlarını bilmir. İnsan özünün səthi, zahiri cəhətlərini əqli və mənəvi təcrübələri ilə eyniləşdirir. Özünəhörmətin aşağı olması, həyatda özünü dərk edə bilməmək, daimi uğursuzluqlar özünə yadlaşmanın bəzi nümunələri hesab edilə bilər. Subkulturaların və əks-mədəniyyətlərin meydana gəlməsi insanın şüursuz və kortəbii şəkildə özünə qarşı özgələşmənin öhdəsindən gəlməyə çalışmasının nümunəsidir.

Bütün deyilənlərdən belə nəticəyə gəlmək olar ki, özgələşmə insan həyatının bütün sahələrində və müxtəlif səviyyələrdə baş verə bilər. Cəmiyyətdə bu, fəaliyyətin özgələşməsi kimi ifadə olunur. Fəaliyyət şəraitinin fəaliyyətdən uzaqlaşdırılması, fəaliyyət nəticələrinin fəaliyyət subyektindən özgələşməsi, nəzəriyyənin təcrübədən uzaqlaşması, sosial strukturların və qurumların işçilərdən uzaqlaşdırılması da bu sahəyə şamil oluna bilər. Şəxsi müstəvidə insanların ailə, qonşuluq, dini münasibətlərdə özgələşməsi halları da nəzərdən qaçmamalıdır. Təsadüfi deyil ki, bunu dərindən duyaraq E.Fromm yazır: "...inkişaf etmiş dünyada özgələşmə o həddə çatıb ki, dini, mənəvi və siyasi ənənələr sarsıdılır və məhv edilir və ümumbəşəri məhv təhlükəsi yaranır, çünki o, dəliliklə həmsərhəddir, bu zaman nüvə müharibəsi yaradılır...".

Özgələşməni bir fenomen kimi aradan qaldırmaq üçün iqtisadi istismarı aradan qaldırmaq, ictimai həyatı demokratikləşdirmək, insan münasibətlərini humanistləşdirmək ən mühüm amillər hesab edilməlidir.

Təbii ki, sahibkarların, fəhlələrin, fermerlərin, müxtəlif ziyalı qruplarının iqtisadi maraqları vahid deyil və müəyyən dərəcədə bir-biri ilə ziddiyyət təşkil edir. Siyasətçilərin və dövlət xadimlərinin müdrikliyi onların sosial qrupların maraqlarını birləşdirmək və insanların iqtisadi maraqlarının reallaşdırılmasına kömək etmək bacarığındadır. İqtisadi proseslərə rasional təsir dövlətə məxsusdur, onun imkanları gücün mövcudluğu ilə müəyyən edilir. Məhz dövlət ictimai istehsalın inkişafı üçün lazımi şəraitin yaradılması üçün tədbirlər görür. Bu şərtlərə aşağıdakılar daxildir: texnika və

texnologiyanın yenilənməsi, çevik iş qrafiki, əmək şəraitinin yaxşılaşdırılması, iqtisadiyyat sahələrinin strukturunun yenidən qurulması, vergi və maliyyə siyasətinin təkmilləşdirilməsi, müxtəlif mülkiyyət formalarının birləşdirilməsi və inkişafı. Cəmiyyətin müxtəlif sosial qruplarının cari və uzunmüddətli maraqlarını, eləcə də görülən hərəkətlərin yaxın və uzaq nəticələrini dərk edərək, dövlət bütün bunları nəzərə alır, istehsalı və ümumiyyətlə, cəmiyyətin iqtisadi həyatını insanların mənafeyinə uyğun olaraq yeni tərzdə inkişaf etdirmək, və köhnəlmiş olanı aradan qaldırmaq üçün təhlillər aparır.

Sosial həyatın demokratikləşməsi vətəndaş cəmiyyətinin və qanunun aliliyinin inkişafında təmsil olunur. Vətəndaş cəmiyyəti insanlar arasında iqtisadi, mədəni, hüquqi və siyasi münasibətləri inkişaf etmiş, dövlətdən asılı olmayan, lakin onunla qarşılıqlı əlaqədə olan bir cəmiyyətdir. Vətəndaş cəmiyyəti müxtəlif ictimai təşkilatlarda, klublarda, partiya və gənclər birliklərində, dərnəklərdə, ekoloji və elmi cəmiyyətlərdə qanunun aliliyini, hökumətin və xalqın qanun çərçivəsində hərəkət etməsini nəzərdə tutur.

Odur ki, sosial planda demokratik prinsiplərin təkmilləşdirilməsi və həyata keçirilməsi, özünüidarəetmənin tətbiqi, vətəndaş cəmiyyətinin müstəqilliyi, vətəndaşlıq hissinin tərbiyəsi, insan hüquqlarına, qanunçuluğa və sosial funksiyalara hörmətlə yanaşılması dövlətin fəaliyyətində mühüm yer tutur. Məhz bu zaman dövlət özgələşmənin aradan qaldırılmasına xidmət edir.

Özgələşmə və özünə yadlaşma amillərinin və onların nəticələrinin aradan qaldırılmasında insanın özü, onun iradəsi və cəsarəti mühüm rol oynayır və buna onun yaradıcılıq prosesinə cəlb olunması şərait yaradır. Yaradıcı yanaşma fərdin özünün iştirakı olmadan formalaşa bilməz, sosial və mədəniyyət institutları insanların təşəbbüskarlığını və fərdi fəaliyyətini dəstəkləyir və inkişaf etdirir, ətrafda baş verənlərə məsuliyyət və şəxsi iştirak hissi aşılayır. Ona görə də insan təfəkkürü aləmə üz tutur və mobil olur, alınan informasiya fəal şəkildə tənzimlənir, müxtəlif səbəblərin təsiri ilə hadisə və proseslərin qiymətləndirilməsi dəyişir. Amma real fakt budur ki, hər hansı bir insanın başlanğıc nöqtəsi həmişə özüdür. Müəyyən şərtlərdə və dünya ilə münasibətlərdə enerji, işgüzarlıq, təşəbbüskarlıq, qətiyyət və müstəqillik, şüurluluq və düşüncə cəsarəti, azadlıq özgələşməni yumşaltmaq və qismən aradan qaldırmaq üçün əsas xarakterik xüsusiyyətləridir.

Özgələşmənin texniki-sosial səbəblərini dərk etməklə yanaşı, onunla da razılaşmalıyıq ki, müasir dünyada özgələşmədən tamamilə xilas olmaq mümkün deyildir. Praqmatik vəzifə onu saxlamaq və məhdudlaşdırmaqdır. Fərdi şüurda buna şəxsiyyətin hərtərəfli inkişafı, onun üfüqlərinin və maraqlarının genişlənməsi, reallığa tənqidi münasibət, daxili mənəvi azadlığın təsdiqi, müxtəlif şəxsi əlaqələr və fəaliyyət sahələri kömək edə bilər.

Qeyd etmək lazımdır ki, indi şəxsiyyətin özgələşməsi bu və ya digər ölkələrin hüdudlarından kənara çıxaraq, bir çox münasibətlərdə beynəlxalq, qlobal hadisəyə çevrilmişdir. Müasir dünyada gedən qloballaşma prosesləri, habelə onlarla milli müstəqil dövlətin keçid mərhələsində olması və bu mərhələnin hələ xeyli davam edəcəyi faktı insanların özgələşməsinə və tənhalıq vəziyyətinə düşməsinə sürətli şəkildə təsir göstərir. Bu təsir xüsusilə də xırda dövlətlərin və xalqların həyatında daha güclü hiss olunur. Təsadüfi deyildir ki, hazırda dünyanın bir çox regionlarında qloballaşma əleyhinə hərəkatlar genişlənməkdədir. Onlar konkret vəziyyətdə hansı məqsəd güdməsindən asılı olmayaraq, ümumən xalqların öz milli-tarixi xüsusiyyətlərini, öz varlığını və özgürlüyünü qoruyub saxlamağa yönəlmişdir. Şəxsiyyətin özgələşməsi, tənhalıq hissinin güclənməsi əksər hallarda həyatın mənasının gərəksizləşməsi ilə nəticələnir. Sonuncu hal təkcə industrial cəhətdən inkişaf etmiş Qərb ölkələri üçün səciyyəvi əlamət deyildir. İndi o, mənəvi keyfiyyətlərin mövcud gerçəkliyə adekvat olmadığı digər ictimai sistemlərdə də özünü göstərir. Sözügedən məsələ, yəni mövcud ictimai həyat ilə insanların malik olduğu mənəvi keyfiyyətlərin uyğun gəlməməsi indi prinsipial problemlərdəndir. Çünki bu iki tərəf qarşılıqlı surətdə bir-birini şərtləndirməlidir. V.Franklın mənəvi dəyərlərin ikiqat zənginləşməsi və reallaşması nəzəriyyəsində də göstərildiyi kimi, ”müəyyən məqamlarda həyat bizi öz hərəkətlərimizlə bu dünyanı zənginləşdirməyə çağırır, elə vaxtlar da olur ki, biz yaşantılarımızla öz-özümüzü zənginləşdirirk” (27, s.174).

Mənəvi keyfiyyətlər insanın həyat və fəaliyyətində çox önəmli bir yer tutur. Onların sırasında elə yüksəkləri vardır ki, şəxsiyyətin öz amalı naminə fədakarlıq göstərməsini, lazım gəldikdə həyatını belə qurban verməsini nəzərdə tutur. Təsadüfi deyildir ki, V.Frankl insanı öz taleyinə və qismətinə tabe olmağı, mənəvi keyfiyyətlərini qoruyub saxlamağı və onları özünə yaxın olanlarla bölüşməyi həyatın mənası hesab edir və insanları buna səsləyirdi [27, s.174]. Bu fikir müəyyən qədər süni yönüm kəsb

etməsinə baxmayaraq, öz-özlüyündə mühüm əhəmiyyət kəsb edir. Müstəqillik qazanmış cəmiyyətlərdə, o cümlədən müasir Azərbaycanda şəxsiyyətin sosial və mənəvi özgələşməsi halları qarşılıqlı surətdə bir-birinə təsir edərək, ümumilikdə bu prosesi sürətləndirir. Belə cəmiyyətlərin keçirdiyi böhranlı məqamlarda dövlət və sosial strukturlar insandan daha çox özgələşir. Sözügedən məqamlarda ictimai qaydaların qorunmasına təminat olmadığı üçün insanın da özgələşməsi güclənir. Nəhayət, belə dövrlərdə sosial münasibətlərin fərdiliyə, onun özünəməxsusluğuna qarşı yönəlməsi nəticəsində mənəvi həyat özgələşir. Həm də nəzərdə tutulmalıdır ki, bu qəbildən olan özgələşmə sadəcə olaraq gerçəklikdən üz döndərmək və ya onun inkar edilməsi ilə məhdudlaşmır. Bu, eyni zamanda şəxsiyyətin qəti etirazı formasını alır. Həmin etiraz isə bir sıra hallarda insanda tənhalıq adlanan “ekzistensial vakuum”un (V.Frankl) yaranmasında ifadə olunur. Bununla əlaqədar qeyd edək ki, özgələşmənin nəticəsi kimi çıxış edən tənhalıq probleminin fəlsəfi mənalandırılması təzə məsələ olmayıb, qədim ənənəyə malikdir. Yəni, onu təkcə müasir cəmiyyətin törətdiyi bəla hesab etmək ədalətsizlik olardı. Belə ki, hələ xristianlıq dinində Ekleziastın dili ilə göstərilirdi ki, “insan təkdir, onun heç kimi yoxdur, onun əməyi sonsuzdur və gözü heç vaxt sərvətdən doyan deyildir” (8, s. 14).

Tənhalıq birdən-birə və öz-özünə yaranmır. Şəxsiyyətin bu vəziyyətə gəlib çatmasına təkcə mövcud cəmiyyətdə özünü göstərən çətinliklər və problemlər deyil, həm də fərdi insanın tələbatı, arzusu, iradəsi, marağı, məqsəd və vəzifələri, onlara nail olmağın vasitələri ilə əlaqəli amillər də güclü təsir göstərir.

Daxili məzmununa görə xeyli dərəcədə mürəkkəb hadisə olan tənhalıq və kimsəsizlik aşağıdakı mərhələlərdə çıxış edir. Birinci ən yüngül pillə onu ifadə edir ki, şəxsiyyət müəyyən mənəvi-əxlaqi keyfiyyətlərə malikdir, onun rasional tələbatları və məqsədləri vardır. Lakin o öz məqsədlərini həyata keçirməyin vasitələri haqqında ən sadəlövh təsəvvürlərə arxalanır. Belə fərdlər özləri bədbəxt olmaqla yanaşı, həm də cəmiyyət üçün təhlükə təşkil edirlər. Çünki öz primitiv biliklərinə arxalanmaqla, yüksək səviyyəli tələbatlarını reallaşdırmağa çalışırlar. İkinci mərhələ bununla səciyyələnir ki, şəxsiyyət öz məqsədlərini həyata keçirmək üçün vasitələr işləyib hazırlaya bilmir və onda həm də digər mövcud vasitələrdən istifadə etmək məharəti yoxdur. Üçüncü pillədə fərd rasional və konstruktiv tələbatlara malik olur, lakin onları adekvat arzular formasında anlaya bilmir. Nəhayət, kimsəsizliyin dördüncü mərhələsi bunu ifadə edir ki, fərdin nəinki adekvat məzmunlu arzuları yoxdur, o heç fundamental sosial tələbatlara da malik deyildir. Bu səviyyədə şəxsiyyət özündə real olmayan tələbatları yerinə yetirmək barədə düşündüyü vasitələri də məhv edir (15, s.60).

Qeyd etmək lazımdır ki, ictimai münasibətlər forması kimi özgələşmənin kəskinlik dərəcəsi təkcə obyektiv amillərlə bağlı deyildir. Bu işdə subyektiv səbəblər, onun həyata keçirildiyi sosiomədəni və psixoloji şərait də əhəmiyyətli rol oynayır (26, s.14). Buradan da müasir dövr üçün müstəsna əhəmiyyət kəsb edən aşağıdakı müddəa irəli gəlir: hazırki dövrdə özgələşməni yumşaltmaq və optimallaşdırmaq üçün sosial-iqtisadi islahatlar ilə ictimai şüura səmərəli təsir göstərmə vasitələri məharətlə əlaqələndirilməli, onların üzvi vəhdəti təmin olunmalıdır. Söhbət ictimai şüura təsir etməyin elə yolları və vasitələrindən gedir ki, onlar fərdin özgələşmiş vəziyyəti hiss etməsini mümkün qədər yumşaltsın. Yalnız bu yol ilə hazırda ölkəmizdə həyata keçirilməkdə olan əsaslı islahatların düzgün səmtdə inkişafını təmin etmək, onların törədə biləcəyi neqativ nəticələri (sosial yoxsulluğu, kimsəsizliyi, ümidsizliyi və s.) və onların özgələşməyə mənfi təsirini aradan qaldırmaq olar.

Müasir cəmiyyətdə gedən elmi-texniki inkişaf, kommunikativ sıçrayışlar, qloballaşma və standartlaşma, mədəni inteqrasiya, dərin siyasi və mənəvi transformasiya prosesləri şəxsiyyəti, insanı öz mövcudluğunun həqiqi mahiyyəini daha dərindən dərk etməyə yaxınlaşdırır və onun dünya ilə, habelə digər insanlarla münasibətlərini harmonikləşmə istiqamətində inkişaf etdirir. Bu özünün müvafiq əksini şəxsiyyətin yuxarıda qeyd olunan münasibətlər sahələrindəki davranışı və fəaliyyətində tapır, yəni onlar əbədi mənəvi postulatlar və ümumbəşəri mənəvi keyfiyyətlərə getdikcə daha çox arxalanır, onun mənəvi seçim imkanları, azad fəaliyyəti və məsuliyyəti artır, onların qarşılıqlı vəhdəti güclənir. Bütün bunların nəticəsində özgələşmənin məzmunu və təzahür formaları da ciddi dəyişikliklərə uğrayır.

Sosial həyatın demokratikləşməsi vətəndaş cəmiyyətinin və qanunun aliliyinin inkişafında təmsil olunur. Vətəndaş cəmiyyəti insanlar arasında iqtisadi, mədəni, hüquqi və siyasi münasibətləri inkişaf etmiş, dövlətdən asılı olmayan, lakin onunla qarşılıqlı əlaqədə olan bir cəmiyyətdir. Vətəndaş cəmiyyəti

müxtəlif ictimai təşkilatlarda, klublarda, partiya və gənclər birliklərində, dərnəklərdə, ekoloji və elmi cəmiyyətlərdə qanunun aliliyini, hökumətin və xalqın qanun çərçivəsində hərəkət etməsini nəzərdə tutur.

Odur ki, sosial planda demokratik prinsiplərin təkmilləşdirilməsi və həyata keçirilməsi, özünüidarəetmənin tətbiqi, vətəndaş cəmiyyətinin müstəqilliyi, vətəndaşlıq hissinin tərbiyəsi, insan hüquqlarına, qanunçuluğa və sosial funksiyalara hörmətlə yanaşılması dövlətin fəaliyyətində mühüm yer tutur. Məhz bu zaman dövlət özgələşmənin aradan qaldırılmasına xidmət edir.

Özgələşmə və özünə yadlaşma amillərinin və onların nəticələrinin aradan qaldırılmasında insanın özü, onun iradəsi və cəsarəti mühüm rol oynayır və buna onun yaradıcılıq prosesinə cəlb olunması şərait yaradır. Yaradıcı yanaşma fərdin özünün iştirakı olmadan formalaşa bilməz, sosial və mədəniyyət institutları insanların təşəbbüskarlığını və fərdi fəaliyyətini dəstəkləyir və inkişaf etdirir, ətrafda baş verənlərə məsuliyyət və şəxsi iştirak hissi aşılayır. Ona görə də insan təfəkkürü aləmə üz tutur və mobil olur, alınan informasiya fəal şəkildə tənzimlənir, müxtəlif səbəblərin təsiri ilə hadisə və proseslərin qiymətləndirilməsi dəyişir. Amma real fakt budur ki, hər hansı bir insanın başlanğıc nöqtəsi həmişə özüdür. Müəyyən şərtlərdə və dünya ilə münasibətlərdə enerji, işgüzarlıq, təşəbbüskarlıq, qətiyyət və müstəqillik, şüurluluq və düşüncə cəsarəti, azadlıq özgələşməni yumşaltmaq və qismən aradan qaldırmaq üçün əsas xarakterik xüsusiyyətləridir.

Özgələşmənin texniki-sosial səbəblərini dərk etməklə yanaşı, onunla da razılaşmalıyıq ki, müasir dünyada özgələşmədən tamamilə xilas olmaq mümkün deyildir. Praqmatik vəzifə onu saxlamaq və məhdudlaşdırmaqdır. Fərdi şüurda buna şəxsiyyətin hərtərəfli inkişafı, onun üfüqlərinin və maraqlarının genişlənməsi, reallığa tənqidi münasibət, daxili mənəvi azadlığın təsdiqi, müxtəlif şəxsi əlaqələr və fəaliyyət sahələri kömək edə bilər.

Beləliklə, gələcək cəmiyyətdə özgələşmə tam aradan qalxmasa da, keçmişdəkindən və indi olduğundan xeyli dərəcədə zəif səviyyədə (yəni şəxsiyyətin öz mahiyyət qüvvələrini tam dolğunluğu ilə reallaşdırmasına o qədər də ciddi təsir göstərə bilməyəcək dərəcədə) özünü göstərəcəkdir.

**Nəticə**

1. Çoxtərəfli və geniş məzmunlu ictimai hadisə olan özgələşmə şəxsiyyətin elə bir psixoloji durumunu ifadə edir ki, burada onun ontoloji mahiyyəti ilə real varlığı bir-birindən ayrılır. Nəticədə şəxsiyyətin öz qabiliyyətlərini reallaşdırmaq imkanları ilə mövcud sosial münasibətlər və institutlar arasında uyğunsuzluq özünü göstərir ki, o təkcə ictimai həyatın müxtəlif sferalarına deyil, həm də şəxsiyyətin daxili aləmini, şüurunu və psixikasını əhatə edir.

2. Özgələşmənin əsas mənbəyini xüsusi mülkiyyət təşkil etdiyi və onun kapitalizm cəmiyyətinə məxsus keyfiyyət olması haqda marksizm müddəası ilə razılaşmaq olmaz. Təhlil sübut edir ki, şəxsiyyətin özgələşməsi bu və ya digər dərəcədə bütün quruluşlarda özünü göstərən tarixi hadisədir və o, müxtəlif iqtisadi-texniki, sosial və bioloji amillər kompleksi ilə şərtlənir.

3. Müasir şəraitdə sosial həyatın bütün sahələrinin əsaslı surətdə dəyişilməsi şəxsiyyət ilə cəmiyyət arasında qarşılıqlı münsibətlərdə yaxınlığı artırır və özgələşməni xeyli dərəcədə yumşaldır, lakin onun fəaliyyətinə son qoymur. Özgələşməni törədən şərait ictimai əmək bölgüsü ilə bağlı olduğu üçün onun gələcək cəmiyyətlərdə də qalacağını ehtimal etmək məntiqidir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı, Təknur, 2012

2. Абдуллаев Я.А. Проблема человека в социокультурном контексте (Переходный период). Баку: 2002-181с.

3. Аллахверанов А.К. Развитие общественного сектора как фактор становления гражданского общества. Автореф. дисс. канд. филос. наук. Баку, 2002-30с.

4. Асафьева В. К. Проблема отчуждения философии Иммануила Канта в трудах мыслителей «Теории общественного договора» и философии Иммануила Канта. Философские науки, Часть 1,7(15), 2015, s.112-119

5. Ворушин Н.А. Политическое отчуждение как один из определяющихфакторов развития современного мира // Сборник научных трудов XII Международной научно-практической

конференции студентов, аспирантов и молодых ученых 3–6 апреля 2013 г., Томск, Изд-во ТПУ, 2013. с. 376–378

6. Головко О. В.Отчуждение личности в русской и индийской философии. Специальность: философия:23.00.03. Автореферат диссертации на соискание ученой степени кандидата философских наук, Москва ,1993 с.

7. Гегель Г.Ф. Работы разных лет. М.: 1972-668с.

8. Гегель Г.Ф. Сочинения т.4, М.: 1959-504с.

9. Илин М.В. Политика как предмет изучения, состав политологии и методы основных политических дисциплин. М.: 1994-395с.

10. Калугин А.С.Терехова Г. Л.Проблема отчуждения в философии Гегеля. Вестник ТГТУ. 2012. Том 18. № 3.

11. Колядко А. В. Проблема отчуждения в философии Э.Фромма (философско-антропологический анализ). Автореферат диссер. на соискание ученой степеникандидата филос… наук, Тула, 2006, 25s.

12. КостюкА.А. Отчуждение творчества в информационном обществе. Диссертация на соискание ученой степени кандидата философских наук Воронеж 2020, 144 с.

13. Крапивенский С.Е. Социальная философия. М.: 1998-411с.

14. Лапин Н.И. Отчуждение//Новая философская энциклопедия. Москва, Мысль, 2001. 182 с.

15. Левин Г.Д. Свобода и покинутость. Методологический анализ.” Вопросы философии”, 1997, № 1, с.21-28

16. Ляшенко Ю. А. Феномен отчуждения человека в условиях информатизации общества. Диссертация... кандидата философских наук: Горно-Алтайск, 2007 150 с.

17. Марков В.И. «Свое», «чужое» и отчуждение в культуре Кемерово КТИТТИ, 2002,169 с.

18. Минаев. Проблема отчуждения в современном обществе: предпосылки и проявления (на примере высшей школы Украины). Киев, Исторична панорама. 2010. Вип.11. с.142-168.

19. Нарский И.С. Отчуждение и труд: по страницам произведений К.Маркса. Москва, Мысль, 1983. 142 с.

20. Олех Л.Г. Преодоление отчуждения и присвоение творческой
сущности личности. Новосибирск, 1992. 189 с.

21. Основы философии (под ред. Попова). М.: 1998-318с.

22. Пахарь Л.И., Петрова Р.А. Отчуждение: теоретическое осмысление проблемы. Философская мысль. 2021. № 8. с.78-91.

23. Современная западная философия. Словарь. М.: Политиздат, 1991-411с.

24. Спирин А.Д. Личность и отчуждение в свете двух
мировоззренческих концепций: диссертация ... кандидата философских наук: 09.00.11. Кемерово, 1995. – 136 с.

25. Суворов А. Отчуждение, человечество, личность // Свободная
мысль, 1993, №16. с. 36–46.

26. Тимченко.Л.Д. Отчуждение в современном обществе (социально-философский анализ проблемы). Автореферат диссертации на соискание ученой степени кандидата философских наук. Барнаул, 2010-20 с.

27. Франкл В. Человек в поисках смысла. М.: Республика, 1990-454с.

28. Шетулова Е. Д. Социально-философский анализ отчуждения в историческом процессе. Автореферат диссертации на соискание ученой степенидоктора философских наук, Нижний Новгород, 2010, 37 с.

29. Lars Svendsen. Yalnızlığın Felsefesi. I.Baskl. Şubat 2018. İstanbul-214 səh.

30. Selahattin Yakut. Yabancılaşma (Psiko-sosial bir bakış). Ankara, 2020, 146 s.

31. Ollman Bertel. Yabançılaşma. Marx’ın Kapitalist Toplumdaki İnsan Anlayışı 2015,432 s.

32. Doğu Ergil. Yabancılaşma ve siyasal katılma. Ankara, 1980, 374 s.

**Rəyçi: f.e.d., dos. Ziba Ağayeva**